# Nəsimi rayonu: ulu öndərin xatirəsi yad edildi

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli və müdrik şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Heydər Əliyev bəşər tarixinin nadir şəxsiyyətlərindəndir ki, onun özündən sonra qoyub getdiyi ideyaları nəinki doğma məmləkətimiz üçün, o cümlədən dünya ölkələri üçün də böyük əhəmiyyət kəsb edir.

Aprelin 30-da Bakının Nəsimi rayonundakı 211 nömrəli məktəbdə ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş mərasim keçirildi. Tədbirdə ilk öncə Heydər Əliyevin parlaq xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən məktəbin direktoru **Vaqif Babayev** vurğuladı ki, Azərbaycanın çağdaş tarixi dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycanın qurucusu, xalqımızın dahi oğlu bəşəriyyətin dünyaya bəxş etdiyi ən böyük şəxsiyyətlərdəndir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün mərhələlərində öz xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamışdır. Özünün zəngin və mənalı həyatı boyu daim xalqını, doğma vətənini düşünmüş, onun inkişafı üçün əzmlə çalışmış və üzləşdiyi çətinliklərdən xilas etmək üçün fədakarlıq göstərmişdir. Bu gün minnətdarlıq hissi ilə qeyd etmək olar ki, müstəqil Azərbaycanın mövcudluğu, qüdrətli bir ölkə kimi təşəkkülü Heydər Əliyev siyasətinin bəhrəsidir və biz hamımız bunun üçün bu dahi və bənzərsiz insana borcluyuq. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir.





Azərbaycan dövlətçiliyinin təməlini dahi öndərimiz hələ respublikaya birinci rəhbərliyi dövründə qoymuşdur. O, Azərbaycanı Sovet dönəmində geridə qalmış respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevirdi. 1969-1992-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin güclü iqtisadi potensialının yaradılmasının nəticəsidir ki, bugünkü müstəqil Azərbaycan qısa bir müddət ərzində yüksək ictimai inkişafa nail olmuşdur.

1993-cü ilin iyununda ulu öndərin xalqımızın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı ərəfəsində ölkəmiz böyük çətinlik bahasına əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Xalqımızın belə ağır, çıxılmaz bir vəziyyətə düşdüyünü görən Heydər Əliyev, onun taleyinə biganə qalmayaraq Naxçıvandan Bakıya gəldi. Öz həyatını böyük təhlükəyə ataraq ölkədə vətəndaş qarşıdurmasının, anarxiyanın, hakimiyyətsizliyin, xaosun, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə aldı, qanunsuz fəaliyyət göstərən, ayrı-ayrı dəstələr tərk-silah edildi. Bununla da Azərbaycan parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu. Qısa bir zamanda Azərbaycanın müstəqil dövlət təsisatları yaradıldı, demokratik prinsiplər bərqərar oldu, dünyəvi dövlət quruculuğu prosesi sürətlə həyata keçirilməyə başladı. İnsan hüquq və azadlıqlarının başlıca prinsipləri təsbit olundu, ölkəmizin xarici siyasəti dünyanın aparıcı böyük dövlətləri ilə milli maraqlar və gələcəyə söykənən strateji xətlə inkişaf etməyə başladı. Heydər Əliyev müasir Azərbaycan dövlətini yaratdı, onun idarəçilik mexanizmini formalaşdırdı.

Ulu öndərimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri onun siyasi kursunu layiqincə davam etdirə biləcək varis yetişdirməsidir. Ümummilli liderin ümidlərini layiqincə doğruldan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz gündən-günə inkişaf edir, iqtisadi artımına görə dünyada lider mövqedə dayanır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşir.

Tədbirdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin direktoru Səbinə Məmmədkərimova iştirak edirdi.

Ulu öndərin xatirəsinə həsr olunmuş mərasimdə Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva geniş çıxış etdi.

Tədbirdə şagirdlərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirildi və olimpiadaların qaliblərinə diplomlar təqdim olundu.

**Qədir ASLAN,**
**"Respublika".**